*UOT 159.9*

***Məhərrəm Sabir oğlu Əliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-3762-8745*
*E-mail: dos.m.aliyev@gmail.com*

# PSİXOANALİTİK NƏZƏRİYYƏ PERSPEKTİVİNDƏ İNTİHAR PROBLEMİ

***Магеррам Сабир оглы Алиев***
*доцент кафедры Общей психологии Азербайджанского Государственного Педагогического Университета, доктор философии по психологии*

# ПРОБЛЕМА САМОУБИЙСТВА В ПЕРСПЕКТИВЕ ПСИХОАНАЛИТИЧЕСКОЙ ТЕОРИИ

***Maharram Sabir Aliyev***
*associate professor of the department of General psychology at Azerbaijan State Pedagogical University, doctor of philosophy in psychology*

# THE PROBLEM OF SUICIDE IN THE PERSPECTIVE OF PSYCHOANALYTIC THEORY

**Xülasə.** Psixoanalitik nəzəriyyə şüursuz konfliktin rolunu qeyd edərək intihara əsaslı görüşü təklif edir. Özünü məhvedici meyllərin müəyyən edilməsində erkən münasibətlərin və daxili obyektlərin önəminə vurğu edir. İlkin uşaqlıq xatirələrinin sıxışdırılmış travmalara çevrilməsinin gələcəkdə aqressivlik şəklində insanın özünə yönələ biləcəyi ehtimalına yer verir. Müasir tədqiqatların və tibbi praktikanın əlaqəsi sayəsində psixoanaliz intihar probleminin sirrini çözməyə və bu zəmində ümidini itirənlərə ümid verməyə davam edəcək.

***Açar sözlər:*** *intihar, psixoanaliz, şüursuzluq, ölüm və həyat instinkti, özünə zərərvermə, özünüməhv*

**Аннотация.** Психоаналитическая теория предлагает глубокий подход к самоубийству, отмечая роль бессознательного конфликта. Подчеркивает важность ранних отношений и внутренних объектов в определении саморазрушительных тенденций. Это дает возможность того, что трансформация ранних детских воспоминаний в вытесненные травмы может быть направлена на человека в виде агрессии в будущем. Через соединение современных исследований и медицинской практики психоанализ продолжит разгадывать тайну проблемы самоубийств и давать надежду тем, кто потерял надежду на этой почве.

***Ключевые слова:*** *самоубийство, психоанализ, бессознательное, инстинкт смерти и жизни, членовредительство, самоуничтожение*

**Abstract.** Psychoanalytic theory offers a profound approach to suicide, noting the role of unconscious conflict. It emphasizes the importance of early relationships and internal objects in determining self-destructive tendencies. This gives the possibility that the transformation of early childhood memories into repressed traumas can be directed at the individual in the form of aggression in the future. By combining modern research and medical practice, psychoanalysis will continue to unravel the mystery of the suicide problem and give hope to those who have lost hope on this basis.

***Key words:*** *suicide, psychoanalysis, unconsciousness, instinct of death and life, self-harm, self-destruction*

**Giriş**

Psixoanalitik nəzəriyyə prizmasından intiharın öyrənilməsi şüursuzluğa "dalmağı" nəzərdə tutur. Bu anlamda, həll edilməmiş konfliktlərin öyrənilməsi və erkən uşaqlıq illərinin təcrübəsinin özünüməhv meyllərinə necə təsir etməsinin başa düşülməsi önəmli addımlardan biridir. Psixoanalitik nəzəriyyələrin köməyilə intiharı araşdırmaq üçün növbəti məsələləri diqqətdə saxlamaq və rəhbər tutmaq lazımdır.

Birincisi, psixoanalizin nəzəri əsasını anlamaq lazımdır. Bunun üçün psixoanalizin əsas konsepsiyaları ilə tanış olmaq önəmlidir. Məsələn, Z. Freud'un (1853-1939) Tanatos anlayışı (ölüm instinkti) Erosla (həyat instinkti) konfliktdə şüursuz olaraq özünüməhv meyilinə götürür (1). Melanie Klein'ın (1882-1960) obyekt münasibətləri nəzəriyyəsi erkən münasibətlərin və daxilən mənimsənilmiş "pis obyektlərin" məyusluq və ümidsizlik hissinin yaranmasına necə şərait yarada biləcəyini araşdırır (2). Jacques Lacan'ın (1901-1981) "Güzgü Mərhələ" anlayışı suisidal düşüncələrdə fraqmentar identikliyin və yadlaşmanın rolunu nəzərdən keçirir (3). Eqo psixologiyası isə öyrənir ki, zəif Eqo İd və Super-Eqo arasında vasitəçilik rolu üçün necə mübarizə apara bilər, hansı ki, destruktiv impulslara gətirib çıxara bilir.

İkincisi, psixoanalitik prinsipləri (şüursuz günah və həya, itki və yas, müdafiə mexanizmləri, köçürmə və əksköçürmə) diqqətdə saxlamaq önəmlidir. Məsələn, şüursuz günah və həya sıxışdırılmış emosiyalar kimi suisidal düşüncələrə şərait yaradır. Freud'da kədər və depressiyanı öyrənmək çözülməmiş kədərin özünə yönəlmiş aqressiya kimi necə təzahür edə biləcəyini anlamağa imkan verir. Digər yandan, insanı düşündürməyə bilməz ki, suisidal davranışda sıxışdırma, inkaretmə kimi qeyri-adaptiv müdafiə mexanizmləri hansı rolu oynayır. Suisidal tendensiyalara təsir edəcək münasibətləri və proqnozları (köçürmə və əksköçürmə) təhlil etmək də işin yararına ola bilər.

Üçüncüsü, konkret halları və ya hadisələri tədqiq etməklə, problemə açıqlıq gətirmək olar. Məsələn, psixoloji travma ilə insan psixologiyasını formalaşdıran bağlanma və ya laqeydlik problemi arasındakı əlaqəni anlamaq üçün uşaqlıq təcrübəsinin öyrənilməsi intihara götürən səbəbləri açığa çıxarmaqda bizə kömək edə bilər. Həmçinin röyaların və hekayələrin təhlili (həyat hekayələrində və rəvayətlərdə özünütənqid, məyusluq və ya gerçəkləşməmiş istək və arzu modellərinin öyrənilməsi) şüursuz konfliktlərin üzə çıxarılması üçün istifadə edilə bilər.

Dördüncüsü, müasir perspektiv baxımından klassik psixoanalizin tənqidi və imkanlarının genişləndirilməsinə fokuslanaraq, məsələyə daha fərqli prizmadan yanaşmaq olar. Özümüzə belə suallar verə bilərik ki, məsələn, "Müasir neyroelm Freud'un şüursuzluq haqqında ideyaları ilə necə səsləşir?" və ya "İntiharı daha yaxşı anlamaq üçün psixoanalitik nəzəriyyəni koqnitiv, davranış və sosiomədəni modellərlə inteqrasiya etmək mümkündürmü?"

Beşincisi, problemə birbaşa müdaxiləyə diqqət yönəldərək psixoanaltik verilənlərin istifadəsi ilə müalicə üzrə tövsiyələrin işlənilməsini əsas saymaq olar. Məsələn, röyaların və simvolların yozumu pasiyentlərə intihar haqqında düşüncələrlə əlaqəli olan şüursuz konfliktləri açmağa kömək edir. Digər halda, insana çözülməmiş qəzəb, itki və ya günah hissləri ilə mübarizə aparmaqda köməklik etməklə ölçü götürmək olar. Daha da ötəsi, dözümlülüyün və dəfetmə mexanizmlərinin formalaşdırılmasına fokuslanmaqla, insanın Eqo'sunun möhkəmləndirilməsinə nail olmaq olar.

Altıncısı, mədəni yönəlişlərin və sosial təsirlərin şüursuzluğa necə təzyiq edib intihara şərait yarada biləcəyini öyrənmək maraqlı perspektiv təqdim edə bilər. Bu anlamda, özümüzə belə suallar verə bilərik: "Kollektiv günah yaxud sosial normalar psixoanalitik konsepsiyalarla necə əlaqələnir?" və ya "Məyusluğa gətirib çıxaran əlçatmaz idealları bizə sırıyan mədəni "Super-eqolar" mövcuddurmu?"

Yeddincisi, intihar haqqında mövcud psixoanalitik ədəbiyyatın xülasəsi köməyə gələ bilər. Bu, bizə pasiyentin təcrübəsi haqqında təsəvvür əldə etməyə yardım edir.

***Metod***

Klassik və müasir psixoanalitik ədəbiyyatların təhlili nəticəsində alınmış məlumatların sistemləşdirilməsi, təsnif edilməsi və interpretasiyası həyata keçirilmişdir. Müxtəlif psixoanalitiklərin nəzəri fikirləri və təcrübələri öyrənilmiş, məsələyə münasibətlərinin şərhi həyata keçirilmişdir.

***Nəticə***

Əsrlər boyu insan şüurunu çaşdıran mürəkkəb və dərin köklü insan təcrübəsi sahəsi

olan intihar psixoloji, sosioloji və fəlsəfi sahələrin kəsişməsində yerləşir. Z. Freud'un əsas işindən qaynaqlanan psixoanalitik nəzəriyyələr, özünüməhv davranışının altında yatan şüursuz proseslərə birbaşa diqqət yetirən maraqlı bir çərçivə təqdim edir. Psixoanalitik nəzəriyyədə intiharın səbəbi insanların xarici aləmə mənfi münasibəti kimi başa düşülür. Bu nəzəriyyə tərəfdarlarını intihar probleminə yanaşmada iki istiqamətə ayırmaq olar:

1. ***İnsan və cəmiyyət kontekstində;***
2. ***Şəxsiyyətdaxili ixtilaf kimi, şəxsiyyətlərarası münasibətlər zəminində.***

Z. Freud'un ölüm instinkti yaxud Tanatos haqqında nəzəriyyəsi intiharın psixoanalitik anlaşılmasında mərkəzi yeri tutur. İlk dəfə "Həzz prinsipinin ötəsində" əsərində Freud iddia edirdi ki, insan davranışını idarə edən iki əsas instinkt var: Eros (yaşam instinkti) və Tanatos (ölüm instinkti). Eros həyatı qorumaq, nəsil artımını təmin etmək istəyir, Tanatos isə, əksinə, Freud'a görə özünüməhvə və cansızlığa şüursuz meyili bildirir (1).

İntihar zamanı ölüm meyili Eqo-nun daxili konflikt və xarici gerçəkliyi tarazlamaq qabiliyyəti üzərində zəfər qazanır. Freud iddia edirdi ki, özünüdağıdıcı impulslar istiqaməti dəyişdirilmiş aqressiyadan yarana bilər. Xarici obyektə yönəlmiş aqressiya daxilə yönələndə biz özünə zərərvermə yaxud intihara şahidlik edirik. Bu internalizasiya, bir qayda olaraq, özlüyündə fərdin çözmədiyi konfliktləri və sıxışdırdığı günah yaxud həya hisslərini ifadə edir (4).

Məhz birinci yanaşmanı inkişaf etdirən Z. Freud'un nəzəriyyəsində yuxarıda deyilənləri nəzərə alsaq, intihar insanın özünə qarşı yönəlmiş aqressiyası kimi izah olunur. "Kədər və melanxoliya" əsərində, o qeyd edir ki, depressiya zamanı müşahidə olunan özünə qarşı nifrət sevdiyi insana münasibətdə qəzəb kimi yaranır, hansını ki, subyektlər geriyə özünə doğru yönəldir (5, s.255-257). Kədərdə Eqo özünü itirilmiş obyektlə eyniləşdirir, nəticədə həmin obyektə münasibətdə qəzəb yaranır. Bu dinamika özünü cəzalandırmaya və suisidal düşüncələrə gətirib çıxara bilər (4). Depressiya sevimli insanın, statusun yaxud özünüqiymətləndirmənin itirilməsindən irəli gələn çözülməmiş kədərin intihara necə gətirə biləcəyini anlamağa əsas verir. İtirilmiş şeylərdən ayrıla bilməmək qabiliyyəti insanı özündən iyrənmə və ümidsizlik tsiklində ilişib qalmağa məcbur edir, bu da, öz növbəsində, özünüməhv əməllərinin həyata keçirilməsi riskini artırır. Z. Freud'a görə, intihara meylli o insanlar ola bilər ki, onlar başqa insanları öldürmək istəyini vaxtilə sıxışdırmışlar.

K. Menninger (1893-1990) Z. Freud'un "insanlarda özünümühafizə və özünüməhvetmə instinktləri arasında gərgin mübarizə gedir" fikri ilə razılaşaraq, intiharın dərin motivlərini araşdırmış və sonra suisidal davranışın üç tərkib hissəsini ayırd etmişdir:

*1) öldürmək istəyi;*
*2) öldürülmək istəyi;*
*3) ölmək istəyi (6).*

O, "Öz-özünlə müharibə" kitabında yazır ki, intihar-həyatın iç qaraldan gerçəkliklərindən qaçmaq cəhdidir və hadisələrin axarı və sosial-ictimai faktorlar bunda önəmli rol oynayır (7).

Analitik psixologiya məktəbinin qurucusu olan C.G. Jung (1875-1961) intihara psixologiya kontekstində kollektiv şüursuzluğa – arxetiplərə – böyük diqqət yetirməklə yanaşırdı (8; 9; 10). Onun metodu kollektiv şüursuzluğun və insan varlığının mənəvi ölçüsünün hərtərəfli nəzəriyyəsi üzərində qurulmuşdur. Jung intihara mərkəzi bir məsələ olaraq çox da diqqət yetirməmiş olsa da, onun yazıları və ideyaları analitik psixologiya çərçivəsində intiharın dərk edilməsinə dair dəyərli fikirlər təklif edir. Jung'a görə, intihar düşüncələri insan həyatında məna tapa bilmədikdə və ya şüurlu, ya da şüursuz mənliyi arasında keçilməz konfliktlə üzləşdikdə yaranır. O, intiharı inteqrasiyanın uğursuz olduğu sınmış psixikanın ifadəsi kimi görür. Jung'ın kölgə Mən konsepsiyası – sıxışdırılmış və inkaredilən cəhət kimi ideyası – insan əzablarının anlaşılması üçün mərkəzi əhəmiyyət daşıyır (11). Suisidal impulslar insan öz kölgəsinə aludə olub, şüurlu Mən'i ilə barışa bilməyəndə yaranır. O, hesab edir ki, insanın mənəvi cəhətdən yenidən doğulmağına şüursuz canatması öz əllərilə ölümə vacib səbəblərdən ola bilər (12). Jung tez-tez intihara sadəcə zehni problem deyil, mənəvi və ya ekzistensial böhran kimi baxır. O, ruhun tələbatlarını ödəməyin və ali məqsədlə əlaqələri möhkəmləndirməyin intihar ümidsizliyinin qarşısını almağa kömək edə biləcəyini təklif edir.

E. Eriksona (1902-1994) görə, suisidal davranışın əsas faktoru yeniyetmə və gənclərin stressə açıq olmalarıdır, hansı ki, öz növbəsində "identiklik böhranı"na gətirib çıxarır (13). İstər

məktəbdə, istərsə də qəbulda imtahan proseduralarının dəyişdirilməsi və mürəkkəbləşdirilməsi, narkotik maddələrdən istifadə etmənin artması, gələcək peşənin seçilməsi qərarsızlığı və s. bu kimi məsələlər "identiklik böhranı"nı xarakterizə etməklə, əslində intihar hallarının artmasına səbəbiyyət verə bilər. Onun fikrincə, intiharın profilaktikasında ən vacib vasitə ailə və onun dəyərləridir.

E. Fromm (1900-1980) öz kitabında (14; 15) həyatsevərlik və ölüsevərlik xarakter tipologiyası əsasında insanın sosial xarakter tiplərini fərqləndirir: məhsuldar və məhsuldar olmayan (alıcı, ekspluator, toplayıcı və marketoloq). Onun fikrincə, məhsuldar olmayan tiplər intihara meyllidir, deməli, intiharın qarşısını almaq üçün şəxsiyyətin məhsuldarlığını artırmaq lazımdır. Əlbəttə, bu fikirlə tam razılaşmaq mümkün deyil, çünki Avropanın bir çox aparıcı ölkəsində ən məhsuldar insan belə intihara cəhd edir və ya intihar edir.

İntihara şəxsiyyətdaxili konflikt kimi yanaşan psixoloqlardan biri K. Horney (1885-1952) olmuşdur (16). O güman edir ki, insanlar arasında qarşılıqlı münasibətlər pozulanda nevrotik konflikt yaranır. K. Horney nevrotik meylləri 3 kateqoriyaya aid edirdi: insanlara yönəlmə, insanlara qarşı olma və insanlardan uzaqlaşma. Belə nəticəyə gələ bilərik ki, son iki meylli insanlarda intihar halları özünü daha bariz göstərə bilər.

M. Klein insan psixologiyasının formalaşmasında erkən münasibətlərin rolunu vurğulayaraq, Z. Freud'un nəzəriyyəsini genişləndirir. M. Klein'in iddiasına görə, körpələrin onların başlıca qəyyumları ilə yaşadıqları təcrübə "yaxşı" və "pis" obyektlərin internalizasiyasına təsir göstərir. Bu daxili obyektlər insanın daxili aləminin əsasını təşkil edir (2).

M. Klein'in nöqteyi-nəzərindən suisidal meyllər o zaman yaranır ki, insanın daxili aləmi zülm edən yaxud pozulmuş obyektlərin hökmü altında olur, məsələn, əgər erkən təcrübə laqeydliklə yaxud zorakılıqla qeyd olunubsa. İnsanlar özünütənqid və ümidsizliyə sövq edən cəzalandırıcı "atalar sözlərini" qəbul edə bilərlər. "Yaxşı" və "pis" obyektlərin inteqrasiyası ilə bağlı mübarizədə onlar intensiv konflikt yaşaya bilərlər, hansı ki, ümidsizlik və viranəlik hisslərinə gətirib çıxarır (17).

J. Lacan'ın psixoanalitik nəzəriyyəsi intihara fərqli baxış bucağı təklif edir. Onun işində mərkəzi yeri "güzgü mərhələləri" tutur, harada ki, körpə ilk dəfə özünü öz şəxsi obrazı ilə identifikasiya edir. Bu identifikasiya mahiyyəti etibarilə yad olan "ideal Mən" yaradır, belə ki, o, fraqmentar "Mən"in tamlığı ilə çata bilməyəcəyi mükəmməllik obrazını əks etdirir (3).

J. Lacan üçün intihar öz-özlüyündə fraqmentar "Mən" və əlçatmaz ideal arasındakı gərginliyi həll etməyə cəhdi ifadə edə bilər. İdentikliyə əlavə olaraq, insanın "simvolik" və "xəyali" mahiyyəti onun kim olduğu ilə kim olması lazım olduğu arasında görünən sanki dözülməz uçurumdan qaçmaq istəyi ilə kulminasiya nöqtəsinə çatır. Bundan əlavə, Lacan'ın "jouissance" (həddindən artıq həzz və ya ağrı) anlayışı intihar davranışının da iztirabdan nihai, transsendental azadlığa nail olmaq cəhdi ola biləcəyini göstərir (18).

A. Freud'un (1895-1982) müdafiə mexanizmləri haqqında əsərində insanların konflikt və həyəcanın öhdəsindən şüursuz şəkildə necə gələ bildikləri qeyd edilir. İntihar halında sıxışdırma, inkaretmə və proyeksiya kimi zorakılıqdan müdafiə mexanizmləri Eqo'nu müdafiə etməyə bilərlər. Bu, əzici ümidsizlik hissinə gətirib çıxarır (19). Məsələn, onu təhqir edən birinə qarşı qəzəbini sıxışdıran bir insan, şüursuz olaraq bu qəzəbini öz içinə yönəldə bilər. Bu, özünü məhv etmək düşüncələrinə gətirib çıxarır və parçalanma (splitting) müdafiə mexanizmi – təcrübələri "hamısı yaxşı" və ya "hamı pis" olaraq bölmək də – buna şərait yarada bilər. Nəticədə, ziddiyyətli emosiyalarla barışa bilməmək qabiliyyəti intihar riskini artırır.

Qeyd etməliyik ki, intiharın psixoanalitik nəzəriyyə prizmasından anlaşılması klinik praktikaya dərin təsir göstərir. Terapiya şüursuz konfliktlərin üzə çıxarılmasına, çözülməmiş kədərlə işə və Eqo'nun möhkəmləndirilməsinə mərkəzləşə bilər. Bu zaman əsas rəhbər tutulacaq prinsiplər aşağıdakılar ola bilər:

-*Röyaların təhlili:* şüursuz qorxuların, istəklərin və konfliktlərin üzə çıxarılması üçün röyaların tədqiq olunması (20).

-*Köçürmə və əksköçürmə:* gizli hiss və modellərin üzə çıxarılması üçün terapevtik münasibətlərin təhlili (21).

-*Yenidən işləmə:* pasiyentə sıxışdırılmış qəzəb, günahkarlıq və ya kədər hissi ilə qarşılaşmağa və onları inteqrasiya etməyə kömək etmək.

*-Eqo'nun möhkəmləndirilməsi:* Daxili və xarici stressorları idarə etmək üçün davamlılıq və adaptiv mübarizə mexanizmlərinin qurulması.

***Müzakirə***

Psixoanalitik nəzəriyyələrin dəyərli fikirlər təqdim etməsinə baxmayaraq, bu nəzəriyyələr empirik sübutların olmamasına və sosial-mədəni amillərdən daha çox daxili psixoloji proseslərə önəm vermələrinə görə tənqid edilmişdir. Müasir yanaşmalar intihar haqqında daha tam bir anlayışı təmin etmək üçün çox vaxt psixoanalitik anlayışları koqnitiv, davranış, sistematik və sosial-mədəni modellərlə birləşdirir.

Məsələn, bağlanma nəzəriyyəsi üzrə tədqiqatlar erkən münasibətlərin psixi sağlamlığa və intihar riskinə necə təsir etdiyini araşdırmaq üçün psixoanalitik prinsiplərə əsaslanır (22). Eynilə, psixoanalitik nəzəriyyələrin neyroelmlə inteqrasiyası şüursuz proseslərin beyin fəaliyyətində və davranışında necə təzahür etdiyinə dair anlayışımızı dərinləşdirdi (23).

**Problemin aktuallığı.** Günümüzdə XXI əsrin texnologiya əsri olmasına baxmayaraq, intihara götürən səbəblərin hələ də dəqiq müəyyən edilə bilməməsi şüursuzluq konsepsiyasını inkişaf etdirən psixoanalitik nəzəriyyələrə baxışı yenidən aktual edir.

**Problemin elmi yeniliyi.** İlk dəfə məqalədə intihara psixoanalitik yanaşmanın müddəaları sistemli işlənilmiş, intiharla bağlı psixoanalitik düşüncənin yol xəritəsi çəkilmişdir.

**Problemin praktik əhəmiyyəti.** İntihara psixoanalitik nəzəriyyələr perspektivində yanaşmaq psixoanalitik metodlardan istifadə edərək pasiyentlərlə, o cümlədən psixoanalitik ədəbiyyatla iş prosesində intihara meylliliyin əsasında dura biləcək şüursuz motivləri və amilləri aşkar etməyə imkan yaradır.

**Ədəbiyyat:**


1. Freud, S. Beyond the Pleasure Principle: [Electronic resource] / W.W.Norton & Company. – NewYork/London. – 1961. URL: https://ia902907.us.archive.org/17/items/SigmundFreud/Sigmund%20Freud%20%5B1920%5D%20Beyond%20The%20Pleasure%20Principle%20%28James%20Strachey%20Translation%201961%29.pdf
2. Klein, M. Notes on Some Schizoid Mechanisms: [Electronic resource] / Envy and Gratitude and Other Works 1946–1963,104():1-24. – 1975. URL: https://pep-web.org/browse/document/IPL.104.0001A?index=20&openNotificationModal=false&page=1
3. Lacan, J. The Mirror Stage as Formative of the *I* Functionas Revealed in Psychoanalytic Experience: [Electronic resource] / W.W.Norton & Company. – NewYork/London. – 2006. URL: https://mudrac.ffzg.hr/~bmikulic/Filoz-Psy2012/JL_0393329259.pdf
4. Freud, S. (1917). Mourning and Melancholia: [Electronic resource] / The Standard Edition of the Complete Psychological Works of Sigmund Freud, Volume XIV (1914-1916): On the History of the Psycho-Analytic Movement, Papers on Metapsychology and Other Works, 243-258 URL:https://www.sas.upenn.edu/~cavitch/pdf-library/Freud_MourningAndMelancholia.pdf
5. Фрейд, З. Печаль и меланхолия // Суицидология: прошлое и настоящее. – М.: Когито-центр, – 2001. – с. 255-270.
6. Моховиков, А.Н. Суицидология: Прошлое и настоящее: Проблема самоубийства в трудах философов, социологов, психотерапевтов и в художественных текстах. – М.: Издательство Когито-Центр, – 2013. – 376 с.
7. Менингер, К. Война с самим собой / пер. Ю. Бондарева. – М.: Изд-во ЭКСМО-Пресс, – 2001. – 480 с.
8. Jung, C.G. Man and His Symbols: [Electronic resource] / Anchor Press, Doubleday/New York/London/Toronto/Sydney/Auckland. – 1964. URL: https://antilogicalism.com/wp-content/uploads/2017/07/man-and-his-symbols.pdf
9. Jung, C.G. Psychology and Alchemy (Collected Works, Vol. 12) : [Electronic resource] / The Collected Works Of C.G.Jung Volume 12, Bollingen Series XX, *Princeton University Press. – USA. – 1980.* URL: https://maypoleofwisdom.com/wp-content/uploads/2021/02/collected-works-of-c.g.-jung-volume-12-psychology-and-alchemy-pdfdrive-.pdf
10. Jung, C.G. (1954). The Practice of Psychotherapy (Collected Works, Vol. 16) : [Electronic resource] / The Collected Works Of C.G.Jung Volume 16, Bollingen Series XX, *Princeton University Press. – USA. – 1985.* URL: https://jungiancenter.org/wp-content/uploads/2023/09/Vol-16-the-practice-of-psychotherapy-essays-on-the-psychology-of-the-transference-and-other-subjects.pdf

11. Casement, A. The shadow: [Electronic resource] / In Renos K. Papadopoulos (ed.), The Handbook of Jungian Psychology: Theory, Practice and Applications. Routledge. pp. 94 (2006) URL: https://appliedjung.com/wp-content/uploads/2020/06/Casement_Ann_The_Handbook_of_Jungian_Psychology.pdf
12. Юнг, К.Г. Аналитическая психология и психотерапия: хрестоматия / К.Г. Юнг. – СПб.: Питер, – 2001. – 232 с.
13. Эриксон, Э. Детство и общество / Э.Эриксон. – СПб.: Ленато, АСТ, Фонд «Университетская книга», – 1997. – 592 с.
14. Fromm, E. Sevginin ve şiddetin kaynağı / İngilisce aslından çevirenler: Y.Salman ve N.İçten. – İstanbul: Payel, – 2014. – 144 s.
15. Фромм, Э. Бегство от свободы / пер. с англ. А.Лактионова. – М.: Аст:Аст МОСКВА, – 2009. – 284 с.
16. Хорни, К. Наши внутренние конфликты: Невроз и развитие личности // Собр. соч.: в 3 т. – М.: Смысл, – 1997. Т.1. – с. 37.
17. Klein, M. (1935). A Contribution to the Psychogenesis of Manic-Depressive States: [Electronic resource] / International Journal of Psychoanalysis 16:145-174 URL: https://nonoedipal.wordpress.com/wp-content/uploads/2009/10/psychogenesis-of-manic-depressive-states.pdf
18. Lacan, J. Ecrits: A Selection: [Electronic resource] / W.W.Norton & Company. – NewYork/London. – 2006. URL: https://mudrac.ffzg.hr/~bmikulic/Filoz-Psy2012/JL_0393329259.pdf
19. Freud, A. The Ego and the Mechanisms of Defence: [Electronic resource] / The Hogarth Press. London. – 1966. URL: https://psptraining.com/wp-content/uploads/Freud-A.-1936-1993.The-ego-and-the-mechanisms-of-defence.-London-Karnac-Books.pdf
20. Freud, S. The Interpretation of Dreams: [Electronic resource] / The Macmillan Company. – New York. – 2013 URL: https://www.gutenberg.org/cache/epub/66048/pg66048-images.html
21. Klein, M. The Origins of Transference: [Electronic resource] / Envy and Gratitude and Other Works 1946–1963,104():48-56 – 1975. URL: https://pep-web.org/browse/document/IPL.104.0048A
22. Bowlby, J. Attachment and Loss: Vol. 3. Loss, Sadness, and Depression: [Electronic resource] / The Travistock Institute of Human Relations. – USA. – 1980. URL: https://sycofx.wordpress.com/wp-content/uploads/2012/11/john-bowlby-loss-sadness-and-depression-attachment-and-loss-1982.pdf
23. Solms, M. The Interpretation of Dreams and the Neurosciences: [Electronic resource] / The Scientific Meeting of The British psychoAnalytical Society on 17th November, 1999. URL: https://psychoanalysis.org.uk/articles/the-interpretation-of-dreams-and-the-neurosciences-mark-solms

**Redaksiyaya daxil olub**: 27.01.2025